**Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2006-cı il 18 aprel tarixli 391 nömrəli, "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2007-ci il 26 fevral tarixli 532 nömrəli və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 4, maddə 323, 12, maddə 1034; 2007, 11, maddə 1105, 12, maddə 1246; 2009, 7, maddə 533, 8, maddə 627, 10, maddə 773, 12, maddələr 983, 988; 2010, 2, maddə 83, 4, maddə 292, 11, maddə 966; 2011, 1, maddə 18, 2, maddə 85, 4, maddə 281, 6, maddə 497, 10, maddə 894, 11, maddə 993; 2012, 10, maddə 950; 2014, 6, maddə 627, 7, maddə 820, 9, maddə 1029; 2016, 1, maddə 77; 2017, 2, maddə 184, 10, maddə 1784; 2018, 6, maddə 1205, 7 (I kitab), maddə 1480; 2019, 3, maddə 431, 5, maddə 860, 6, maddə 1044, 12, maddə 1927; 2020, 7, maddə 882; 2021, 5, maddə 439) 9.9-cu bəndinə "qeydiyyatının" sözündən sonra ", o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq elektron qaydada" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 2, maddə 98; 2009, 2, maddə 59; 2010, 11, maddə 968; 2012, 11, maddə 1107; 2013, 10, maddə 1153; 2014, 9, maddə 1058; 2015, 6, maddə 701; 2016, 2 (II kitab), maddə 272; 2018, 5, maddə 925, 8, maddə 1687) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin 14.13-cü bəndinə "qeydiyyatını" sözündən sonra "(o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq elektron qaydada)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 6, maddə 542; 2013, 1, maddə 29, 2, maddə 117, 3, maddə 246, 8, maddə 909, 10, maddə 1155, 12, maddə 1514; 2014, 5, maddələr 477, 487, 9, maddə 1027, 12, maddə 1577; 2015, 3, maddə 271, 9, maddə 1005, 11, maddə 1322, 12, maddə 1448; 2016, 2 (II kitab), maddə 273, 5, maddələr 859, 864, 8, maddə 1384, 9, maddə 1464, 10, maddə 1647, 11, maddə 1835; 2017, 3, maddə 353, 4, maddə 545, 5, maddə 807, 8, maddə 1521, 10, maddə 1797; 2018, 2, maddələr 191, 215, 3, maddə 427, 4, maddə 659, 7 (I kitab), maddə 1462, 10, maddə 2017, 12 (I kitab), maddələr 2538, 2596; 2019, 3, maddə 406, 4, maddə 655, 5, maddələr 820, 826, 848, 852, 857, 6, maddə 1037, 12, maddə 1936; 2020, 1, maddə 7, 8, maddə 1039; 2020, 10, maddə 1247; 2021, 1, maddələr 16, 36, 6 (I kitab), maddə 567, 11, maddə 1211; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 dekabr tarixli 1502 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 5.2-ci bəndinə "qeydiyyatını" sözündən sonra "(o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq elektron qaydada)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 yanvar 2022-ci il
1582